DOI: https://doi.org/10.30546/3006-2772.2002.1045

# "Əl-Qaidə": yaranması, ideologiyası və psixoloji faktorlar

***Qüdrət Cəfərli***
Azərbaycan İlahiyyat İnstitutunun
"Dinşünaslıq" ixtisası üzrə doktorantı
Bakı, Azərbaycan
ceferov2601@gmail.com
https://orcid.org/0000-0002-9715-1176

Daxilolma tarixi: 30.03.2026
Nəşrə təsdiq tarixi: 30.04.2026

## Xülasə

Beynəlxalq təhlükəsizlik miqyasında təhdidlərin XX əsrin sonlarından etibarən daha da artması terrorizmin mahiyyətinə yenidən nəzər keçirməyi sövq etmiş, bu cür təşkilatların fəaliyyət istiqamətləri ilə yaxından tanış olmağı zəruri hala gətirib çıxarmışdır. Sözügedən məzmunun sərhədləri çərçivəsində "əl-Qaidə" təşkilatı qlobal miqyasda fəaliyyət göstərən, şəbəkə strukturlu və ideoloji baxımdan kompleks xarakterə malik dini radikal qurum kimi xüsusi diqqət çəkir. Xüsusilə 2001-ci il 11 sentyabr terror aktlarından sonra təşkilat beynəlxalq təhlükəsizlik gündəliyinin əsas mövzularından birinə çevrilmişdir.

Məqalədə "əl-Qaidə" terror təşkilatının yaranması, inkişaf mərhələləri, ideoloji əsasları və fəaliyyət mexanizmləri tarixi-siyasi və sosial-psixoloji aspektlərdən kompleks şəkildə təhlil olunur. Araşdırmada təşkilatın formalaşmasının yalnız dini amillərlə deyil, həm də geosiyasi proseslər, beynəlxalq münasibətlər sistemindəki dəyişikliklər və sosial-psixoloji faktorlarla qarşılıqlı əlaqədə baş verdiyi əsaslandırılır.

Tədqiqatın məqsədi "əl-Qaidə"nin inkişaf dinamikasını, beynəlxalq təhlükəsizlik mühitinə təsirini və radikallaşma proseslərinin mahiyyətini multidissiplinar yanaşma əsasında izah etməkdir. Tədqiqat keyfiyyət metodologiyasına əsaslanır və analiz, sintez, müqayisəli, tarixi və sosial-psixoloji təhlil metodlarından istifadə edilmişdir. Bu metodlar vasitəsilə təşkilatın şəbəkə tipli strukturu, ideoloji mobilizasiya imkanları və fəaliyyətinə təsir göstərən amillər sistemli şəkildə araşdırılmışdır.

Tədqiqatın nəticələri göstərir ki, müasir qlobal təhlükəsizlik mühitində qeyri-dövlət aktorlarının rolu artmaqda davam edir. “Əl-Qaidə” nümunəsində radikallaşma mexanizmlərinin və ideoloji manipulyasiya vasitələrinin təhlili terrorizmlə mübarizə strategiyalarının hazırlanması və preventiv təhlükəsizlik siyasətinin formalaşdırılması baxımından mühüm elmi və praktik əhəmiyyət daşıyır.

***Açar sözlər:*** *din psixologiyası, dini radikalizm, terror, psixoloji amillər, “əl-Qaidə”*

*Jurnalımızda dərc olunan məqalələrin müəllif hüquqları müəlliflərə məxsusdur və onlar CC-BY-NC lisenziyası ilə hər kəsə açıq şəkildə dərc olunur.*

# Al-Qaida: The Formation, Ideological Foundations, and the Role of Psychological Factors

***Gudrat Jafarli***
PhD in Religious Studies
Azerbaijan Institute of Theology
Baku, Azerbaijan
ceferov2601@gmail.com
https://orcid.org/0000-0002-9715-1176

Date of submission: 30.03.2026
Date of acceptance: 30.04.2026

**Absract**

Since the late twentieth century, the growing scale of threats to international security has necessitated a renewed examination of the nature of terrorism and highlighted the importance of gaining a deeper understanding of the operational patterns of terrorist organizations. Within this context, Al-Qaeda stands out as a globally operating, network-based organization with a complex ideological structure rooted in religious extremism. Following the terrorist attacks of September 11, 2001, the organization became one of the central issues on the international security agenda.

This article comprehensively analyzes the emergence, stages of development, ideological foundations, and operational mechanisms of Al-Qaeda from historical-political and socio-psychological perspectives. The study argues that the organization's formation cannot be explained solely by religious factors but should also be understood in relation to geopolitical developments, transformations in the international system, and socio-psychological dynamics.

The aim of the research is to explain the development dynamics of Al-Qaeda, its impact on the international security environment, and the nature of radicalization processes through a multidisciplinary approach. The study is based on a qualitative methodology and employs methods of analysis, synthesis, comparative analysis, historical analysis, and socio-psychological analysis. These methods enable a systematic examination of the organization's network structure, ideological mobilization capacity, and the factors influencing its activities.

The findings indicate that the role of non-state actors in the contemporary global security environment continues to increase. The radicalization analysis mechanisms and ideological manipulation techniques, as exemplified by Al-Qaeda, has significant theoretical and practical value for developing counterterrorism strategies and shaping preventive security policies.

**Keywords:** Psychology of Religion, Religious Radicalism, Terrorism, Psychological Factors, Al-Qaida.

*The copyright of the articles published in our journal belongs to the authors and is published as open access under CC-BY-NC license.*

# «Аль-Каида: формирование, идеология и психологические факторы»

***Гудрат Джафарли***
Докторант по специальности «Религиоведение»
Азербайджанского института теологии
Баку, Азербайджан
ceferov2601@gmail.com
https://orcid.org/0000-0002-9715-1176

Дата подачи статьи в редакцию: 30.03.2026
Дата подтверждения статьи к публикации: 30.04.2026

## Резюме

Рост угроз международной безопасности с конца XX века обусловил необходимость переосмысления сущности терроризма и более глубокого изучения направлений деятельности террористических организаций. В данном контексте особое внимание привлекает организация «Аль-Каида», представляющая собой глобально действующую сетевую структуру со сложной идеологической системой, основанной на религиозном радикализме. После террористических актов 11 сентября 2001 года организация стала одной из ключевых тем международной повестки в сфере безопасности.

В статье комплексно анализируются возникновение, этапы развития, идеологические основы и механизмы деятельности организации «Аль-Каида» с историко-политической и социально-психологической точек зрения. В исследовании обосновывается, что формирование организации обусловлено не только религиозными факторами, но и взаимосвязью с геополитическими процессами, изменениями в системе международных отношений и социально-психологическими факторами.

Цель исследования заключается в объяснении динамики развития «Аль-Каиды», её влияния на международную безопасность и сущности процессов радикализации на основе междисциплинарного подхода. Исследование основано на качественной методологии с использованием методов анализа, синтеза, сравнительного, исторического и социально-психологического анализа. Применение данных методов позволило системно исследовать сетевую струк-

туру организации, её возможности идеологической мобилизации и факторы, оказывающие влияние на её деятельность.

Результаты анализ механизмов радикализации и методов идеологического воздействия на примере «Аль-Каиды» имеет важное теоретическое и практическое значение для разработки стратегий противодействия терроризму и формирования превентивной политики в области безопасности.

***Ключевые слова:*** *психология религии, религиозный радикализм, терроризм, психологические факторы, Аль-Каида*

*Авторские права на статьи, опубликованные в нашем журнале, принадлежат авторам и публикуются в открытом доступе по лицензии CC-BY-NC.*

**Giriş**

Giriş hissəsində qoyulan əsas elmi problem qlobal terror təşkilatlarının inkişaf dinamikasının beynəlxalq münasibətlər sistemində yaratdığı yeni təhlükəsizlik reallıqlarını izah etmək, bu fenomenin “əl-Qaidə” nümunəsində struktur və funksional xüsusiyyətlərini müəyyənləşdirməkdən ibarətdir. Müasir dövrdə terror təşkilatları yalnız lokal təhlükə mənbəyi deyil, eyni zamanda, transmilli şəbəkələr kimi çıxış edərək, qlobal təhlükəsizlik sisteminə ciddi təsir göstərir. Tədqiqatın əsas məqsədi “əl-Qaidə” terror təşkilatının yaranmasını, inkişaf dinamikasını tarixi-siyasi və sosial-psixoloji aspektlər çərçivəsində kompleks şəkildə izah etmək, onun beynəlxalq təhlükəsizlik mühitinə təsirini müəyyənləşdirmək, radikallaşma proseslərinin mahiyyətini sistemli şəkildə açıqlamaqdır. Eyni zamanda, tədqiqatın məqsədi təşkilatın yalnız dini-ideoloji çərçivədə deyil, daha geniş geosiyasi və sosial kontekstdə formalaşdığını göstərmək, müasir terrorizmin çoxşaxəli xarakterini ortaya qoymaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün tədqiqat çərçivəsində bir sıra vəzifələr müəyyən edilmişdir. İlk növbədə, “əl-Qaidə”nin yaranmasına təsir edən geosiyasi və tarixi amillər, xüsusilə “soyuq müharibə”nin son mərhələsi, onun nəticələri təhlil edilmişdir. Bundan əlavə, beynəlxalq münasibətlər sistemində baş vermiş struktur dəyişikliklərin təşkilatın formalaşmasına təsiri araşdırılmışdır. Digər mühüm vəzifə ideoloji liderlərin və onların nəzəri konsepsiyalarının təşkilatın inkişafında oynadığı rolu müəyyənləşdirməkdir. Həmçinin təşkilati strukturun xüsusiyyətləri, şəbəkə əsaslı fəaliyyət modeli və sosial-psixoloji faktorlar, o cümlədən radikallaşma mexanizmləri, qrup identikliyi məsələləri geniş şəkildə təhlil edilmişdir.

Metodoloji baxımdan tədqiqatda analiz və sintez metodları vasitəsilə mövcud nəzəri yanaşmalar ümumiləşdirilmiş, tarixi metodla hadisələrin inkişaf ardıcıllığı izlənilərək keyfiyyət metodundan istifadə edilmişdir. Araşdırma çərçivəsində beynəlxalq münasibətlər, siyasi tarix və psixologiya sahələrinin nəzəri çərçivələri inteqrasiya olunaraq, terrorizm fenomeninin çoxölçülü mahiyyəti sistemli şəkildə təhlil edilmişdir. Analiz metodu vasitəsilə “əl-Qaidə”nin formalaşmasına təsir edən əsas amillər – geosiyasi proseslər, ideoloji faktorlar və psixoloji mexanizmlər ayrı-ayrılıqda öyrənilmiş, sintez metodu ilə isə bu elementlər qarşılıqlı əlaqədə ümumiləşdirilərək, vahid nəzəri çərçivə formalaşdırılmışdır. Bu yanaşma təşkilatın inkişafının tək bir səbəbdən deyil, müxtəlif faktorların qarşılıqlı təsiri nəticəsində baş verdiyini göstərməyə imkan vermişdir. Daha sonra tarixi metod tədqiqatın mühüm komponentlərindən biri kimi çıxış edərək, hadisələrin xronoloji ardıcıllığı izlənilmişdir. Tədqiqatda

son olaraq psixoloji analiz metodu geniş şəkildə tətbiq olunmuşdur. Bu metod vasitəsilə fərdlərin radikallaşma səbəbləri, qrup identikliyi, ideoloji manipulyasiya, motivasiya mexanizmləri təhlil edilmişdir. Bu metodların tətbiqi tədqiqatın elmiəsaslı və sistemli şəkildə aparılmasına imkan yaratmışdır.

Nəticə etibarilə, aparılan təhlil müasir təhlükəsizlik siyasətinin formalaşmasına təsir göstərən çoxşaxəli amilləri kompleks şəkildə anlamağa, terrorizmə qarşı daha effektiv yanaşmaların müəyyənləşdirilməsinə imkan verir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, sosial qrupların ortaya çıxmasına zəmin yaradan faktorları hər hansı tək səbəb üzərindən izah etməyin çətinliyi ilə üzləşirik. Bu baxımdan, XX əsrin sonlarında formalaşmış "əl-Qaidə" terror təşkilatının yaranması və inkişafı yalnız dini-ideoloji faktorlarla deyil, həm də dövrün tarixi hadisələri, beynəlxalq münasibətlər sistemində baş vermiş geosiyasi dəyişikliklərlə sıx bağlı olmuşdur. "Soyuq müharibə"nin son mərhələsində beynəlxalq sistemdə yaranmış güc boşluğunun, ideoloji qarşıdurmaların, qeyri-dövlət aktorlarının, xüsusilə də Şərq ölkələrində rolunun artması terror şəbəkələrinin fəaliyyətinə təkan verən amillər sırasındadır.

Sovet İttifaqının dağılması ilə Yaxın Şərq regionunda yeni siyasi reallıqlar meydana çıxdı. Bir sıra ölkələrdə siyasi sabitliyin zəifləməsi radikal qrupların fəaliyyətini genişləndirdi. Bu şəraitdə digər terror təşkilatlar kimi, "əl-Qaidə" də özünü qlobal miqyasda fəaliyyət göstərən ideoloji hərəkat kimi təqdim etməyə başlamışdır. Bundan əlavə, Qərb dövlətlərinin Yaxın Şərq siyasəti, xüsusilə də ABŞ hərbi bazalarının Səudiyyə Ərəbistanında yerləşdirilməsi təşkilatın anti-Qərb hirsini gücləndirdi. "Əl-Qaidə" liderləri bu faktoru müsəlman torpaqlarının "işğalı" kimi təqdim edərək, tərəfdar toplamaq üçün istifadə etdilər (Öztürk, 2017, 240).

Tədqiqat çərçivəsində terrorizmin nəzəri əsasları və anlayış çərçivəsi xüsusi diqqət mərkəzində saxlanılır. Müasir terrorizm fenomeni siyasi zorakılığın yeni forması olmaqla yanaşı, informasiya texnologiyalarının inkişafı fonunda ideoloji təsir və psixoloji manipulyasiya vasitəsi kimi çıxış edir. Bu baxımdan, "əl-Qaidə"nin fəaliyyəti yalnız fiziki təhlükə mənbəyi deyil, həm də qlobal səviyyədə radikallaşma proseslərinə təsir göstərən ideoloji platforma kimi qiymətləndirilir (Bergen, 2007, 300).

XX əsrin sonlarından etibarən, beynəlxalq münasibətlər sistemində baş verən struktur dəyişikliklər, regional münaqişələrin intensivləşməsi və qloballaşma prosesinin sürətlənməsi təhlükəsizlik anlayışının məzmununda ciddi transformasiyalara səbəb olmuşdur. Ənənəvi döv-

lətlərarası müharibə modellərinin yerini getdikcə qeyri-ənənəvi təhlükələr, xüsusilə transmillilik xüsusiyyəti daşıyan terror təşkilatlarının fəaliyyəti tutmağa başlamışdır. Bu kontekstdə “əl-Qaidə” təşkilatı müasir dövrün qlobal terror şəbəkələrinin formalaşmasında və inkişafında mühüm rol oynamış aktorlardan biri kimi diqqəti cəlb edir (Sageman, 2008, 220).

“Əl-Qaidə”nin meydana çıxması, güclənməsi prosesi müəyyən tarixi və geosiyasi amillərlə sıx bağlı olmuşdur. Xüsusilə “soyuq müharibə”nin son mərhələsində baş vermiş regional qarşıdurmalar, dövlət institutlarının zəiflədiyi coğrafiyalarda radikal qruplaşmaların fəallaşması, ideoloji boşluqların yaranması terror təşkilatlarının fəaliyyət imkanlarını genişləndirmişdir. Bu şəraitdə “əl-Qaidə” yalnız lokal xarakterli silahlı qrup kimi deyil, həm də qlobal ideoloji şəbəkə modelinə əsaslanan transmilliləşmiş təhlükəsizlik aktoru kimi formalaşmışdır.

### 1. “Əl-Qaidə”nin yaranmasında geosiyasi amillər və beynəlxalq münasibətlər sistemindəki vəziyyət

“Əl-Qaidə” terror təşkilatının yaranmasındakı əsas geosiyasi amillərdən biri kimi Sovet İttifaqının 1979-cu ildə Əfqanıstana hərbi müdaxiləsini nümunə göstərmək olar. Bu hadisə regional münaqişəni qlobal güclərin qarşıdurma meydanına çevirmiş, ABŞ və müttəfiqləri tərəfindən sovet təsirinə qarşı asimmetrik müqavimət strategiyası tətbiq olunmuşdur. Bu çərçivədə müsəlman ölkələrindən mücahidlərin Əfqanıstana axını üçün münbit şərait yaranmış, həmin vəziyyətdə çox saylı insan kütləsinin sözügedən bölgəyə gəlməsi üçün təşviq edilmiş, müxtəlif qeyri-rəsmi şəbəkələr vasitəsilə maliyyə və ideoloji dəstək göstərilmişdir. Nəticədə müharibə təkcə hərbi qarşıdurma deyil, həm də transmilliləşmiş radikal ideologiyanın yayılması üçün katalizator rolunu oynamışdır. Bu proses gələcəkdə “əl-Qaidə” kimi şəbəkə tipli təşkilatların formalaşmasına zəmin yaratmışdır (Riedel, 2008, 160).

Digər mühüm amil beynəlxalq münasibətlər sistemində güc balansının dəyişməsi və Sovet İttifaqının dağılması ilə bağlıdır. Belə ki, 1991-ci ildən sonra formalaşan unipolyar sistemdə ABŞ-nin qlobal miqyasda mövqeyinin güclənməsi bəzi regionlarda anti-Qərb meyllərinin artmasına səbəb olmuşdur. Yaxın Şərqdə hərbi mövcudluğun genişlənməsi, xüsusilə 1991-ci il Körfəz müharibəsi zamanı xarici qoşunların Səudiyyə Ərəbistanında yerləşdirilməsi radikal islamçı dairələr tərəfindən “mədəni və siyasi müdaxilə” kimi dəyərləndirilmişdir. Bu narazılıq fonunda ideoloji mobilizasiya vasitəsinə çevrilərək “əl-Qaidə”nin anti-Qərb ritorikasının güclənməsinə gətirib çıxarmışdır (Çağlar, 2018, 250).

Geosiyasi mühitin digər komponenti zəif dövlət strukturlarının mövcudluğu ilə bağlı olmuşdur. Əfqanıstan, Sudan və Somali kimi ölkələrdə siyasi sabitsizlik və institusional boşluqlar radikal qruplaşmalar üçün təhlükəsiz fəaliyyət zonaları yaratmış, öz məqsədlərinə çatmaq üçün bu kimi yerlərdən lazımi şəkildə istifadə etmişlər. Sözügedən ərazilər təşkilatın həm logistika, həm təlim, eləcə də maliyyə şəbəkələrini qurmaq üçün imkan yaratmışdır. Beynəlxalq münasibətlər baxımından belə mühitlər qeyri-dövlət aktorlarının güclənməsinə və dövlət suverenliyinin nisbi zəifləməsinə səbəb olan faktorlar kimi qiymətləndirilir. Bu cür şərait eyni zamanda xarici müdaxilələrə açıq mühit formalaşdıraraq regional təhlükəsizlik balansını pozur və transmilli terror şəbəkələrinin daha geniş coğrafiyada yayılmasına əlverişli zəmin yaradır (Bergen, 2007, 300).

Sadalananlara əlavə olaraq, qloballaşma prosesinin sürətlənməsi də "əl-Qaidə"nin yaranmasında dolayı rol oynamışdır. Belə ki, informasiya texnologiyalarının sürətli inkişafı, internet və media vasitələrinin geniş yayılması təşkilata ideoloji mesajlarını qlobal miqyasda yaymaq imkanı vermişdir. Eyni zamanda, sərhədlərarası maliyyə axınlarının artması və qeyri-rəsmi maliyyə kanallarının mövcudluğu təşkilatın resurs bazasının güclənməsinə şərait yaratmışdır. Miqrasiya proseslərinin intensivləşməsi isə müxtəlif regionlardan olan fərdlərin bir araya gəlməsini və ideoloji şəbəkələrin genişlənməsini asanlaşdırmışdır. "Əl-Qaidə" klassik mərkəzləşdirilmiş hərbi strukturdan fərqli olaraq şəbəkə modelinə əsaslanaraq müxtəlif regionlarda "françayzinq"[1] prinsipi ilə fəaliyyət göstərmiş, yerli qrupları ideoloji çərçivə daxilində birləşdirmişdir. Bu xüsusiyyət onu beynəlxalq təhlükəsizlik sistemində çevik, davamlı və transmilliləşmiş yeni tip təhlükə aktoruna çevirmişdir. Bundan əlavə, qloballaşma nəticəsində kommunikasiya sürətinin artması və informasiya mühitinin liberallaşması radikal ideologiyaların daha sürətli yayılmasına səbəb olmuş, bu da təşkilatın həm tərəfdar bazasını, həm də fəaliyyət coğrafiyasını genişləndirməsinə imkan yaratmışdır (Roy, 2005, 250).

Nəticə olaraq, "əl-Qaidə"nin yaranması geosiyasi rəqabət, regional münaqişələr, eləcə də qlobal güc uğrunda gedən mübarizədə tərəfin dəyişməsi və zəif dövlət institutlarının mövcudluğu kimi faktorların qarşılıqlı təsiri nəticəsində baş vermişdir. Beynəlxalq münasibətlər sistemində qeyri-dövlət aktorlarının rolunun getdikcə artması və

---

[1] "Əl-Qaidə"nin mərkəzi sistemi ilə eyni ad, ideya və üsullardan istifadə etməklə nisbətən müstəqil fəaliyyət göstərməsi mənasına gəlir.

təhlükəsizlik anlayışının transformasiyası bu təşkilatın fəaliyyətinin genişlənməsinə şərait yaratmışdır. Bu baxımdan, “əl-Qaidə”nin formalaşması müasir beynəlxalq sistemin struktur problemlərinin və qlobal siyasi dinamikanın kompleks nəticəsi kimi qiymətləndirilə bilər.

### 3. Təşkilatın ideoloji bazasının formalaşmasında şəxslərin rolu

“Əl-Qaidə” müxtəlif ideoloji cərəyanların sintezindən formalaşmış mürəkkəb ideoloji struktura malik təşkilat kimi xarakterizə olunur. Onun ideoloji bazasında sələfi-vəhhabi düşüncə modeli, “Müsəlman qardaşları” hərəkatının qutbist interpretasiyası və Misir cihad məktəbinin radikal yanaşmaları mühüm yer tutur. Bu ideoloji sintez təşkilatın həm nəzəri, həm də praktiki fəaliyyət istiqamətlərinin formalaşmasına öz təsirini göstərmişdir. Bu kontekstdə təşkilatın ideoloji əsaslarının izahı üçün Üsamə bin Laden, Eymən əl-Zəvahiri və Abdullah Yusuf Mustafa Azzam kimi fiqurların bioqrafik və intellektual inkişaf trayektoriyasının araşdırılması məqsədəuyğun hesab edilir (Michael Ryan, 2007, 19). Sovet qoşunlarının 1989-cu ildən etibarən Əfqanıstandan çıxması regionda siyasi boşluğun yaranmasına və dövlət institutlarının zəifləməsinə səbəb olmuşdur. Bu şərait qeyri-dövlət silahlı qrupların fəaliyyət imkanlarının genişlənməsinə və radikal şəbəkələrin möhkəmlənməsinə mühit yaratmışdır. Əfqanıstan həmin dövrdə müxtəlif beynəlxalq güclərin maraqlarının toqquşduğu geosiyasi məkana çevrilmiş, mücahid qrupları geniş maliyyə və hərbi dəstək əldə etmişdir. Müharibə zamanı formalaşmış mücahidlərdən ibarət şəbəkə sonrakı mərhələdə “əl-Qaidə”nin təşkilati bazasının əsasını təşkil etmiş və qlobal səviyyədə radikal ideoloji həmrəyliyin yaranmasına zəmin hazırlamışdır (Sageman, 2008, 220).

### 3.1. Üsamə bin Laden (1957–2011)

Üsamə bin Ladenin formalaşdığı sosial-iqtisadi mühit onun sonrakı siyasi-dini fəaliyyətinə mühüm təsir göstərmişdir. Səudiyyə Ərəbistanında XX əsrin ortalarında urbanizasiya və infrastruktur layihələrinin genişlənməsi iqtisadi yüksəliş üçün əlverişli şərait yaratmış, bin Laden ailəsi də bu prosesdən faydalanaraq, maliyyə imkanlarını və siyasi nüfuzunu artırmağa nail olmuşdur. Ailənin dövlət layihələrində fəal iştirakı, xüsusilə dini ibadət yerlərinin tikintisi və yenidənqurulması sahəsində fəaliyyəti onların cəmiyyət daxilində mövqeyini möhkəmləndirmişdir. Belə sosial və iqtisadi mühit Üsamə bin Ladenin ideoloji baxışlarının formalaşmasında struktur amil kimi çıxış etmişdir. Onun ideoloji dünyagörüşünün inkişafında ali təhsil dövründə təsirləndiyi dini alimlərin rolu

xüsusi vurğulanır. Belə ki, bu istiqamətdə Abdullah Azzam və Məhəmməd Qutb kimi ideoloqların təsiri nəticəsində, dini fundamentalizm elementləri siyasi İslam düşüncəsi ilə birləşmiş, yeni radikal düşüncənin formalaşmasına zəmin yaratmışdır. Səudiyyə dini ənənələri ilə "Müsəlman qardaşları" ideologiyasının qarşılıqlı təsiri nəticəsində meydana çıxan "Sahva" (dini oyanış) hərəkatı bin Ladenin ideoloji identikliyinin təşəkkülündə mühüm faktor kimi qiymətləndirilir (Bergen, 2007, 300).

Bin Laden 1980-ci illərdə Pakistan və Əfqanıstan ərazilərində fəaliyyət göstərən mücahid qruplarına maliyyə və logistika dəstəyi göstərmiş, həmçinin xarici könüllülərin cəlb edilməsində fəal iştirak etmişdir. Bu məqsədlə yaradılmış "Məktəb əl-Xidmət" strukturu sonradan təşkilatın şəbəkə modelinə əsaslanan fəaliyyətinin ilkin institusional nümunəsi kimi dəyərləndirilə bilər (Mehmet, 2015, 240). Ladenin, həmçinin beynəlxalq siyasi-dini proseslərə aktiv münasibəti onun regional münaqişələrdə iştirak etməsinə gətirib çıxarmışdır. O, müxtəlif müsəlman regionlarında fəaliyyət göstərən islamçı qruplarla humanitar və maliyyə əlaqələri quraraq, xüsusilə Əfqanıstan müharibəsi kontekstində qlobal səviyyədə tanınmağa başlamışdır. Bu proses bioqrafik, sosial və ideoloji faktorların qarşılıqlı təsiri nəticəsində onun radikal siyasi aktor kimi formalaşmasını izah edən əsas elementlərdən hesab olunur (Riedel, 2008, 160).

Bu istiqamətdə 1988-ci ildə bin Laden və tərəfdarları tərəfindən təsis edilən "əl-Qaidə əl-Sulbah" anlayışı təşkilat daxilində ideoloji bağlılığın möhkəmləndirilməsini ifadə edirdi. Bu konsepsiya güclü dini motivasiya, təşkilat daxilində sərt intizam, eləcə də liderə etibar və sadiqlik kimi prinsiplərə əsaslanaraq radikal hərəkatın təməllərini qoymaqda vacib amillərdən sayılırdı. Təşkilatın ilkin strateji məqsədi müsəlman ölkələrində xarici hərbi-siyasi təsirlərə qarşı mübarizə aparmaq və qlobal cihad ideyasını yaymaqdan ibarət olmuşdur (Michael Ryan, 2007, 54).

### 3.2. **Eymən Məhəmməd Rəbi əz-Zəvahiri** (1951–2022)

"Əl-Qaidə"nin ideoloji və təşkilati strukturunun formalaşmasında bin Ladenlə yanaşı, Eymən əl-Zəvahiri də mühüm rol oynamışdır. Müasir qlobal cihadçı ideoloji düşüncənin təşəkkülünə Eymən əl-Zəvahirinin mühüm təsirə malik aparıcı fiqurlardan olması bir sıra terror təşkilatları ilə bağlı tədqiqatlarda da özünü göstərir. Onun fəaliyyəti, xüsusilə "əl-Qaidə" təşkilatının ideologiyasının sistemləşdirilməsi, nəzəri əsaslarının möhkəmləndirilməsi və strateji prioritetlərinin müəyyənləşdirilməsi baxımından diqqət çəkir. Tibbi təhsil almış və gənc yaşlarından siyasi-dini

fəallıq nümayiş etdirmiş əl-Zəvahiri Misirdə mövcud olan radikal islamçı mühitin təsiri altında formalaşmışdır. Bu mühit onun sonrakı ideoloji baxışlarının intellektual çərçivəsinin yaranmasında mühüm rol oynamışdır (Riedel, 2008, 160).

Əl-Zəvahirinin fəaliyyətinin əsas istiqamətlərindən biri islamçı hərəkatın nəzəri əsaslarının inkişaf etdirilməsindən ibarət olmuşdur. O, çıxışlarında və yazılarında Qərb dövlətlərinin siyasi və mədəni təsirini İslam dünyası üçün fundamental təhlükə kimi təqdim etmiş, müsəlman cəmiyyətlərinin idarəetmədə dini prinsiplərə əsaslanan modelə qayıtmasının zəruriliyini vurğulamışdır. Onun ideoloji yanaşmalarında mövcud siyasi rejimlərin legitimliyinin sual altına alınması və "yaxın düşmən" konsepsiyası mərkəzi yer tutmuşdur. Bu baxışa görə, ilk növbədə, müsəlman ölkələrində fəaliyyət göstərən dünyəvi hakimiyyət strukturlarına qarşı mübarizə aparılması təşkilatın əsas ana xətti hesab edilirdi. Əl-Zəvahiri ilə Üsamə bin Laden arasında 1990-cı illərdə formalaşan strateji əməkdaşlıq qlobal cihad ideyasının daha geniş miqyasda yayılmasına zəmin yaratmışdır. Bu ittifaq nəticəsində əvvəl üstünlük təşkil edən "yaxın düşmən" strategiyası, tədricən, "uzaq düşmən" anlayışı ilə tamamlanmış və Qərb dövlətlərinə qarşı beynəlxalq səviyyədə silahlı fəaliyyət ideyası ön plana çəkilmişdir. Əl-Zəvahiri bu transformasiya prosesində təşkilatın ideoloqu və strateji düşüncə mərkəzi kimi çıxış edərək onun fəaliyyətinin regional çərçivədən çıxarılmasına və qlobal miqyasda siyasi simvolizmə əsaslanan hücumların planlaşdırılmasına töhfə vermişdir (Sageman, 2008, 220).

Bununla yanaşı, əl-Zəvahiri radikal ideologiyanın əsaslandırılması üçün dini mətnlərin seçici şərhindən geniş istifadə etmişdir. Bu istiqamətdə o, cihad anlayışını yalnız müdafiə xüsusiyyətlərin malik olan fəaliyyət kimi deyil, həm də siyasi və inqilabi mübarizə forması kimi izah etmişdir. Sözügedən yanaşma təşkilatın tərəfdarlarının ideoloji motivasiyasını gücləndirməyə və silahlı fəaliyyətlərin dini borc kimi təqdim olunmasına şərait yaratmışdır. Beləliklə, dini diskurs vasitəsilə radikal fəaliyyətlərin legitimləşdirilməsi təşkilatın ideoloji təsir imkanlarının genişlənməsinə xidmət etmişdir (Riedel, 2008, 160).

Nəticədə qeyd etmək olar ki, Eymən əl-Zəvahirinin fəaliyyəti "əl-Qaidə"nin ideoloji strukturunun intellektual tərəfinin formalaşdırılması və strateji istiqamətinin müəyyənləşdirilməsi baxımından həlledici rol oynamışdır. O, təşkilatı təkcə silahlı şəbəkə kimi deyil, həm də qlobal miqyaslı ideoloji hərəkat kimi təqdim etməyə çalışmışdır. Bütün bunları nəzərə alaraq, əl-Zəvahirinin ideoloji mirası müasir radikal cihadçı diskursun analizi üçün mühüm nəzəri çərçivə rolunu oynayır.

### 3.3. Abdullah Yusuf Mustafa Azzam (1941–1989)

Yuxarıda qeyd edilən şəxslərdən əlavə olaraq, XX əsrin sonlarında formalaşan qlobal cihadçı ideoloji hərəkatın nəzəri əsaslarının qurulmasında Fələstinəsilli İslam alimi, eləcə də dövrün dini-siyasi fiqurlarından hesab edilən Abdullah Azzamın da mühüm rol oynadığını qeyd etmək mümkündür. Onun həyat yolu ilə ideoloji baxışları arasında sıx qarşılıqlı əlaqə müşahidə olunur. Azzamın ideologiyasının əsasını "fərdi cihad borcu" (fərz ayn) anlayışı təşkil edirdi. Bu yanaşma onun həyat təcrübələri ilə birbaşa bağlı idi. Xüsusilə sovet–əfqan müharibəsi dövründə Əfqanıstana köçməsi və mücahid hərəkatına qoşulması onun nəzəri baxışlarını praktik fəaliyyətə çevirmişdir. Azzam cihadın yalnız regional deyil, qlobal miqyasda müsəlmanların üzərinə düşən dini vəzifə olduğunu irəli sürərək, bu ideyanı həm yazıları, həm də təşkilati fəaliyyəti ilə yaymışdır. Azzamın müharibə dövründəki fəaliyyətinin digər mühüm istiqaməti beynəlxalq könüllülərin səfərbər edilməsi, silahlı müqavimətin ideoloji baxımdan əsaslandırılması istiqamətindəki fəaliyyətləri diqqət çəkmişdir. Belə ki, onun Üsamə bin Ladenlə birlikdə yaratdığı Məktəb əl-Xidmət təşkilatı xarici ölkələrdən gələn mücahidlərin Əfqanıstana cəlb edilməsində mühüm rol oynamışdır. Bu təşkilati fəaliyyət Azzamın ideologiyasının praktik təzahürünü ifadə edir və onun nəzəriyyə ilə praktikanı birləşdirən yanaşmasını göstərir. Bu proses həm döyüş təcrübəsinin, həm də ideoloji həmrəyliyin formalaşmasına şərait yaratmış, nəticədə sonrakı mərhələdə qlobal terror şəbəkələrinin yaranmasına zəmin hazırlamışdır (Sageman, 2008, 220).

Azzamın fikirləri yalnız regional münaqişəni nəzərdə tutmurdu, həm də transmilli səviyyədə radikal islamçı düşüncənin yayılmasına təsir göstərmişdir. Onun ideoloji yanaşmalarının mərkəzində müsəlman torpaqlarının müdafiəsi ideyası dayanırdı. O, xarici hərbi müdaxilələrə qarşı silahlı müqaviməti dini və mənəvi borc kimi təqdim edərək fərdlərin cihada qoşulmasını legitimləşdirməyə çalışmışdır. Bu baxımdan, onun çıxışları və yazıları cihad anlayışının müdafiə xarakterli fəaliyyət kimi şərh edilməsinə yönəlmiş, lakin zamanla bu konsepsiya daha geniş siyasi məzmun qazanmışdır. Azzamın ideoloji təsiri nəticəsində cihad yalnız lokal mübarizə forması kimi deyil, ümumi müsəlman həmrəyliyini təmin edən qlobal səfərbərlik mexanizmi kimi interpretasiya olunmağa başlanmışdır (Öztürk, 2017, 240).

Azzamın düşüncə sistemində, eyni zamanda, dini mətnlərin selektiv interpretasiyası mühüm yer tutmuşdur. O, klassik İslam hüququ və teologiyasına istinad etməklə silahlı mübarizəni legitimləşdirən ideoloji diskurs yaratmağa çalışmışdır. Bu yanaşma radikal qrupların öz fəaliy-

yətlərini dini borc kimi təqdim etməsinə imkan vermiş, tərəfdarların motivasiya səviyyəsini artırmışdır. Onun ideyaları, xüsusilə gənc müsəlmanların identiklik axtarışı və sosial ədalətsizlik hissləri ilə uzlaşdırılaraq radikallaşma prosesini sürətləndirən amillərdən biri kimi çıxış etmişdir. A.Azzamın fəaliyyətləri müasir qlobal cihadçı ideologiyanın nəzəri və təşkilati əsaslarının formalaşmasında mühüm mərhələ kimi qiymətləndirilir. Onun ideoloji mirası radikal hərəkatların transmilli xarakter almasına, kollektiv mobilizasiya mexanizmlərinin güclənməsinə və dini motivli siyasi zorakılığın legitimləşdirilməsinə təsir göstərmişdir. Bu baxımdan, Azzamın düşüncələri müasir təhlükəsizlik tədqiqatlarında radikal ideoloji proseslərin izahı üçün mühüm analitik çərçivə kimi araşdırılmağa davam edir. Nəticə etibarilə, Abdullah Azzamın həyatı və ideologiyası bir-birini tamamlayan və qarşılıqlı şəkildə formalaşdıran amillər kimi çıxış edir. Onun şəxsi təcrübələri, xüsusilə müharibə şəraiti və dini təhsili, qlobal cihad konsepsiyasının inkişafında həlledici rol oynamışdır. Bu baxımdan Azzamın fəaliyyəti yalnız nəzəri ideoloq kimi deyil, həm də praktik təşkilatçı kimi qiymətləndirilməlidir (Kaya, 2013, 220).

Ümumilikdə, "əl-Qaidə"nin ideologiyasına nəzər saldıqda qeyd etmək mümkündür ki, sözügedən məzhəbəsaslı radikal dini təşkilatın ideoloji bazası əsasən radikal yanaşmalar üzərində qurulmuşdur. Bu ideologiya İslamın erkən dövrünə qayıdışı və şəriət qanunlarına əsaslanan siyasi sistemin qurulmasını hədəfləyir. Qeyd olunan bütün məqamları nəzərə alaraq təşkilatın ideoloji bazasını təşkil edən aşağıdakı bir neçə əsas tezisə diqqət yetirmək olar.

**Qlobal cihad ideyası;** "əl-Qaidə"nin ideoloji sistemində mühüm yer tutan konsepsiyalardan biri "qlobal cihad" anlayışıdır. Bu yanaşma təşkilat tərəfindən müsəlman ərazilərinin müdafiəsi və xarici təsirlərə qarşı silahlı müqavimət kimi interpretasiya olunur. Sözügedən ideya milli sərhədləri aşan transmilli mübarizə modeli kimi təqdim edilərək dini diskurs vasitəsilə əsaslandırılmağa çalışılmışdır. Beləliklə, təşkilat qlobal cihad konsepsiyasını yalnız hərbi faaliyyət forması kimi deyil, həm də siyasi mobilizasiya aləti kimi istifadə etmişdir. Bu ideoloji çərçivə tərəfdarların səfərbər edilməsinə və silahlı fəaliyyətlərin dini motivlərlə əlaqələndirilməsinə xidmət etmişdir. Nəticə etibarilə, qlobal cihad anlayışı "əl-Qaidə"nin strateji istiqamətlərinin müəyyənləşdirilməsində və ideoloji təsir imkanlarının genişləndirilməsində mühüm rol oynamışdır.

**Təkfir konsepsiyası;** "əl-Qaidə"nin ideoloji doktrinasında diqqətçəkən əsas elementlərdən biri "təkfir" anlayışıdır. Bu konsepsiya müəy-

yən şəxslərin, xüsusilə siyasi hakimiyyət nümayəndələrinin və ya mövcud idarəetmə sistemlərinin dini legitimliyinin inkar edilməsi kimi izah olunur. Təşkilat bu yanaşmadan öz fəaliyyətinə ideoloji əsas yaratmaq və silahlı mübarizəni legitimləşdirmək məqsədilə istifadə etmişdir. Təkfir konsepsiyası vasitəsilə sekulyar siyasi modellər və beynəlxalq əməkdaşlığa açıq mövqe tutan müsəlman liderlər kəskin tənqid hədəfinə çevrilmişdir. Belə bir ideoloji konstruksiya radikal qrupların fəaliyyətində qarşıdurmanın güclənməsinə və tərəfdarların səfərbər olunmasına şərait yaratmışdır. Bu baxımdan, "təkfir" anlayışı "əl-Qaidə"nin ideoloji sərhədlərinin formalaşmasında və radikal diskursunun sistemləşdirilməsində mühüm mexanizm kimi çıxış edir.

**Ümmət həmrəyliyi;** digər mühüm mobilizasiya vasitələrindən biri də ümmət həmrəyliyi ideyasıdır ki, bu konsepsiya milli sərhədlər və etnik fərqliliklərdən kənar vahid dini kimliyə əsaslanan kollektiv birlik modelini ön plana çəkir. Təşkilat sözügedən yanaşmanı qlobal miqyasda tərəfdar toplamaq və transmilli şəbəkə qurmaq məqsədilə istifadə etmişdir. Ümmət həmrəyliyi diskursu sosial bərabərsizlik, siyasi müdaxilə və mədəni təzyiq kimi narrativlərlə birləşdirilərək, ideoloji motivasiya gücləndirilmişdir. Beləliklə, bu anlayış "əl-Qaidə"nin qlobal səfərbərlik strategiyasının və ideoloji legitimlik mexanizminin mühüm tərkib hissəsi kimi qiymətləndirilə bilər (Mehmet, 2015, 240).

Yuxarıda adları qeyd edilən ideoloji əsaslar təşkilatın fəaliyyətinə haqq qazandırmaq, ətraflarına müxtəlif ölkələrdən olan tərəfdaşlar cəlb etmək üçün istifadə olunurdu. "Əl-Qaidə" liderləri öz fəaliyyətlərində dini terminologiyadan istifadə edərək zorakılıq aktlarını "müqəddəs vəzifə" kimi təqdim edir, bu yolla təşkilat üzvlərinə motivasiya verərək onları "canlı bomba" vəziyyətinə gətirirdilər.

## 4. Təşkilati struktur

"Əl-Qaidə"nin ilkin strukturu mərkəzləşdirilmiş olsa da, zaman keçdikcə, şəbəkə tipli təşkilata çevrilməsi müşahidə edildi. Bu model təşkilata həm elastiklik, həm də təhlükəsizlik baxımından üstünlüklər verdi. Təşkilatın əsas idarəetmə funksiyasını yerinə yetirən orqanı "Şura Şurası" adlanan rəhbər komitə hesab olunurdu. Burada strateji qərarlar qəbul olunur, maliyyə və əməliyyat planları koordinasiya edilirdi. Yerli bölmələr isə müəyyən dərəcədə muxtariyyətə malik idi və fəaliyyətlərini regional şəraitə uyğunlaşdırırdılar. Bu struktur sonradan digər terror təşkilatları tərəfindən də mənimsənilirdi, çünki şəbəkə modeli təhlükəsizlik qüvvələrinin təşkilatı tamamilə zərərsizləşdirməsinə maneə yaradır, bu yolla təşkilatın uzun müddətli fəaliyyət göstərməsini təmin edirdi.

Bunun üçün istənilən təşkilat müəyyən elementlərdən ibarət olmalı idi (Sageman, 2004, 220). Belə ki, “əl-Qaidə” terror təşkilatınında vacib hesab edilən kompenentləri aşağıdakılardır:

## 4.1. Təşkilati strukturun əsas komponentləri

**4.1.1.** İlk vaxtlarda “əl-Qaidə”nin təşkilati strukturu bir neçə əsas komponent üzərində qurulmuş və fəaliyyətlərini bu istiqamətdə idarə etdikləri müşahidə edilmişdir. Bunlardan birincisini yuxarıdakı bölmələrdə qeyd etdiyimiz liderlik və strateji qərar qəbuletmə səviyyəsinə verdikləri önəmə baxdığımız zaman görmək mümkündür. Sözügedən səviyyədə təşkilatın ideoloji istiqaməti, hədəfləri və beynəlxalq əlaqələri müəyyənləşdirilmiş, daha sonra bu xüsusların təkmilləşdirilməsi prosesi baş tutmuşdur. Liderlik strukturunda formal iyerarxiya daha arxa planda qalmış, şəxsi nüfuz və ideoloji legitimlik isə ön plana çıxmışdır.

**4.1.2.** Operativ fəaliyyət şəbəkələrinin olması ikinci mühüm element kimi nəzərdən keçirilə bilər. Belə ki, həmin şəbəkələr müxtəlif regionlarda yerləşən lokal hüceyrələrdən ibarət olmuşdur. Bu məqamda qeyd edilməsi məqsədə uyğun olar ki, təhlükəsizlik risklərini azaltmaq və fəaliyyətlərindəki gizlilik prinsiplərini qorumaq məqsədilə hüceyrə tipli təşkilatlanma modeli effektiv mexanizm hesab edilirdi. Qeyd edilən bu lokal qruplar müəyyən əməliyyatların planlaşdırılmasında, eyni zamanda onların tətbiq edilməsində nisbi müstəqilliyə malik olsalar da, bütün təşkilat üzvlərinin əsas hesab etdikləri ümumi strateji xəttə sadiq qalmalı idilər.

**4.1.3.** Üçüncü komponent kimi isə ideoloji və logistika infrastrukturunun tərtibatını qeyd etmək zəruridir, çünki təlim düşərgələri, dini-ideoloji dərslər, həmçinin maliyyə təminatı da təşkilatın davamlı fəaliyyətinin təmin edilməsində əsas vasitələr kimi çıxış etmişdir. Bu struktur elementləri insan resurslarının hazırlanması və təşkilati identikliyin gücləndirilməsi baxımından mühüm rol oynamışdır (Çağlar, 2018, 250).

Nəticə etibarilə, “əl-Qaidə”nin təşkilati strukturu və erkən inkişaf mərhələsi onun sonrakı fəaliyyət modelinin formalaşmasında, o cümlədən şəbəkə tipli təşkilatlanma, ideoloji liderlik və lokal hüceyrələrə əsaslanan operativ mexanizm təşkilatın uzunmüddətli davamlılığının təmin edilməsində əsas faktorlar kimi rol oynamışdır. Yarandığı ilk vaxtlarda baş verən struktur və strateji transformasiyalar “əl-Qaidə”ni regional silahlı qrupdan qlobal miqyasda fəaliyyət göstərən transmillətçi təşkilata çevirmişdir (Sageman, 2004, 220).

## 5. Radikallaşma mexanizmləri və psixoloji faktorlar

Müasir təhlükəsizlik perspektivindən yanaşdıqda, terror təşkilatlarının fəaliyyətini yalnız siyasi və hərbi aspektlər çərçivəsində təhlil etmək onların mahiyyətini bütünlükdə anlamağa imkan vermir. Bu səbəbdən sosial-psixoloji amillərin araşdırılması müasir elmi diskurs çərçivəsində xüsusi aktuallıq kəsb edir. Bu məzmunda "əl-Qaidə" terror təşkilatının fəaliyyətini izah edərkən radikallaşma mexanizmləri, qrup identikliyi, ideoloji təsir vasitələri və zorakılığın legitimləşdirilməsi, eləcə də təşkilatın istifadə etdiyi simvolik narrativlər və dini diskursun fərdlər üzərində təsiri kimi faktorlar mühüm yer tutur. Bir çox tədqiqatlarda təşkilatın uzunmüddətli fəaliyyətinin əsas səbəblərindən biri kimi onun üzvlərinin psixoloji motivasiyalarını düzgün istiqamətləndirməsi və fərdləri ideoloji baxımdan formalaşdırmaq qabiliyyəti göstərilir (Kaya, 2013, 220).

Psixoloji təsir strategiyalarının əsas elementlərindən biri kimi fərdlərin identiklik böhranından istifadə etməsi "əl-Qaidə"nin yeni üzvlər cəlb etmək metodlarından hesab olunur. Bir çox hallarda təşkilata qoşulan şəxslər cəmiyyət tərəfindən kənara atılması səbəbindən, eyni zamanda siyasi ədalətsizlik hissi və mədəni təcrid kimi faktorların təsiri altında radikal ideologiyalara meyl göstərirlər. Belə ki, fərdlər özlərini mənsub olduqları cəmiyyətin bir üzvü kimi hiss etmədikdə, alternativ ideoloji yanaşmalara və qruplara yönəlmək ehtimallarının artdığının şahidi oluruq. "əl-Qaidə" kimi təşkilatlar isə bu psixoloji boşluğu "ümumi məqsəd", "müqəddəs missiya" və "qardaşlıq" kimi anlayışlarla doldurmağa çalışır. Bu anlayışlar fərdlərə həm mənəvi əsaslandırma, həm də sosial identiklik qazandıraraq onların təşkilata bağlılığını gücləndirir. Bundan əlavə, təşkilat fərdlərin yaşadığı frustrasiya və ədalətsizlik hissini ideoloji çərçivəyə salaraq onu kollektiv mübarizənin bir hissəsi kimi təqdim edir. Bu prosesdə emosional manipulyasiya, selektiv informasiya təqdimatı və simvolik narrativlər mühüm rol oynayır. Nəticə etibarilə, fərd tədricən əvvəlki sosial bağlarından uzaqlaşaraq yeni ideoloji kimlik formalaşdırır və bu kimlik təşkilatın strateji məqsədlərinə xidmət edən əsas resurslardan birinə çevrilir (Roy, 2005, 250).

Eyni zamanda qeyd etmək olar ki, qrup psixologiyası terror təşkilatlarının fəaliyyət mexanizmlərinin anlaşılmasında əsas analitik açarlardan biri kimi çıxış edir. Xüsusilə "əl-Qaidə" kimi ideoloji əsaslı və şəbəkə tipli qurumlarda kollektiv identiklik və "biz" şüurunun formalaşdırılması sistemli şəkildə təşviq olunur. Bu prosesdə fərdlər tədricən şəxsi identikliklərini ikinci plana keçirərək özlərini daha çox təşkilatın bir parçası kimi qəbul etməyə başlayırlar. Nəticədə fərdi maraqlar və müs-

təqil düşüncə formaları zəifləyir, onların yerini qrupun ümumi məqsəd və ideoloji prioritetləri tutur. Sosial psixologiyada “qrup konformizmi” kimi tanınan bu fenomen, fərdlərin qrup normalarına uyğun davranmağa meyilli olması ilə xarakterizə olunur. “Əl-Qaidə” daxilində bu proses yalnız sosial uyğunlaşma ilə məhdudlaşmır, eyni zamanda ideoloji təzyiq, dini əsaslandırmalar və liderlik strukturları vasitəsilə gücləndirilir. Belə şəraitdə təşkilat üzvləri fərqli düşüncələrini ifadə etməkdən çəkinir, çünki bütün bunlar qrup daxilində həm sosial təcrid, həm də “xəyanət” kimi qiymətləndirilə bilər. Bu isə tənqidi düşüncənin zəifləməsinə və alternativ baxışların demək olar ki, tamamilə aradan qalxmasına şərait yaradır (Kerküklü, 2023, 85-97). Bundan əlavə, qrup daxilində formalaşan emosional bağlılıq və qarşılıqlı asılılıq hissi üzvlər arasında yüksək səviyyədə psixoloji yaxınlıq yaradır. Bu bağlılıq yalnız ideoloji deyil, həm də emosional və sosial səviyyədə özünü göstərir. Üzvlər bir-birlərini “qardaşlıq” və ya “mübarizə yoldaşı” kimi qəbul edir, bu da onların bir-birinə qarşı məsuliyyət hissini gücləndirən xüsuslardan hesab olunur. Nəticə etibarilə, fərdlər qrupun məqsədləri naminə daha yüksək risklərə getməyə hazır olur, hətta zorakı fəaliyyətləri belə legitim və zəruri hesab etməyə başlayırlar. Bu kontekstdə qrup psixologiyası fərdlərin davranışlarına yalnız təsir göstərmir, eyni zamanda onları istiqamətləndirən və motivasiya edən əsas qüvvəyə çevrilir. Beləliklə, “əl-Qaidə” daxilində kollektiv şüurun gücləndirilməsi və fərdi düşüncənin zəiflədilməsi təşkilatın davamlılığını təmin edən mühüm psixoloji mexanizmlərdən biri kimi qiymətləndirilə bilər (Özeren, 2012, 180).

“Əl-Qaidə”nin psixoloji təsir mexanizmlərindən biri kimi çıxış edən simvolik hekayələrdən və ideoloji mifologiyadan istifadə etməsi təşkilatın fəaliyyətini tarixi və dini motivlərlə əsaslandıraraq üzvlərdə mənəvi legitimlik hissi yaradır. Bu cür ideoloji çərçivə zorakılığın “müdafiə xarakterli” və ya “ədalətli mübarizə” kimi təqdim olunmasına imkan verən amillərdən hesab edilir. Nəticədə fərdlər öz hərəkətlərini etik baxımdan haqlı hesab edə bilir və bu vəziyyətdə həmin şəxslərdə psixoloji dissonans səviyyəsi getdikcə azalmağa başlayır (Horgan, 2005, s. 200). Beləliklə, qəhrəmanlıq hekayələri vasitəsilə qürur, qəzəb, ədalət hissi kimi emosiyalar oyadılır, fərdin rasional düşünməsini zəiflədir, bunun nəticəisi kimi də emosional identifikasiyanı gücləndirir. Bu isə radikallaşmanın sürətlənməsinə səbəb olur. Qəhrəmanlıq hekayələri və narrativlərin rolu dini motivli terrorizmdə yalnız təbliğat vasitəsi ilə məhdudlaşmır, həmçinin onlar ideologiyanın yayılmasına, yeni üzvlərin cəlb edilməsinə, zorakılığın legitimləşdirilməsinə, qrup identikliyinin möhkəmləndirilməsinə şərait yaradır və bu yolla təşkilatın davamlılığını

təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir (Juergensmeyer, 2003, 316).

Psixoloji təsirin digər mühüm istiqaməti qorxu və təhdid strategiyalarının tətbiqidir. Təşkilatın həyata keçirdiyi zorakılıq aktları yalnız fiziki zərər yetirmək məqsədi daşımır, eyni zamanda geniş auditoriyaya yönəlmiş psixoloji təsir vasitəsi kimi çıxış edir. Kütləvi qorxu atmosferinin yaradılması ideoloji mesajların yayılmasına və təşkilatın təsir imkanlarının genişlənməsinə xidmət edir. Bu proses terrorizmin psixoloji müharibə elementi kimi dəyərləndirilməsinə səbəb olur. Nəticədə cəmiyyətdə davamlı narahatlıq və güvənsizlik mühiti formalaşır, insanların gündəlik davranışları belə dəyişir. Bu isə sosial sabitliyin zəifləməsinə və dövlət institutlarına etimadın azalmasına gətirib çıxarır (Şen, 2018, 190).

Radikallaşma prosesində fərdi motivasiya faktorları da xüsusi əhəmiyyət kəsb edir ki, bəzi hallarda şəxsi travmalar, sosial ədalətsizlik təcrübələri və ya ideoloji romantizm fərdlərin terror təşkilatlarına qoşulmasına zəmin yaradır. “əl-Qaidə” isə bu fərdi motivləri kollektiv ideoloji məqsədlərlə uzlaşdıraraq onları təşkilati fəaliyyətə inteqrasiya edir. Beləliklə, fərdi psixoloji ehtiyaclar təşkilatın strateji məqsədlərinə xidmət edən resursa çevrilir (Horgan, 2005, 200). Bununla yanaşı, təşkilat fərdlərin kimlik böhranından və mənsubiyyət axtarışından da istifadə edir. Özünü cəmiyyət tərəfindən kənarlaşdırılmış hiss edən şəxslər üçün ideoloji çərçivə həm mənəvi əsaslandırma, həm də sosial qəbul imkanı yaradır. Bu prosesdə güclü təbliğat və simvolik qəhrəmanlıq narrativləri fərdlərin qərarvermə mexanizmini təsir altına alaraq radikallaşmanı daha da sürətləndirir. Eyni zamanda, sosial şəbəkələr və onlayn platformalar vasitəsilə aparılan təsir kampaniyaları fərdlərin informasiya məkanını məhdudlaşdıraraq alternativ baxışların qarşısını alır. Bu, onların tənqidi düşünmə qabiliyyətini zəiflədir və ideoloji təsirlərə daha açıq hala gətirir. Nəticədə, fərd tədricən radikal qrupla emosional və ideoloji bağlılıq qurur (Özeren, 2012, 180). Nəticə etibarilə müasir dövrdə qloballaşma və sürətli sosial dəyişikliklər fərdlərin identiklik sistemində ciddi transformasiyalara səbəb olmuşdur. Bu mövzuda Mark Juergensmeyer bu prosesi analiz edərək qeyd edir ki, ənənəvi sosial strukturların zəifləməsi fərdlərdə kimlik böhranı yaradır və bu boşluq radikal ideologiyalar tərəfindən doldurula bilər. Belə olduğu halda kimlik böhranı yaşayan fərdlər özlərini sosial sistemdən kənarlaşmış hiss etdikdə, daha sabit və mənalı identiklik axtarışına çıxırlar. Bu kontekstdə dini radikal qruplar sadələşdirilmiş dünya görüşü və aydın “biz

və onlar”, “ağ və qara” bölgüsü təqdim edərək fərdlərə güclü aidiyyət hissi qazandırmasına zəmin yaradır (Juergensmeyer, 2003, 320).

Bundan əlavə, təşkilatın ideoloji təsir dairəsinin yalnız dini motivasiya ilə məhdudlaşdığını söyləmək çətindir, çünki iqtisadi çətinliklər, sosial bərabərsizlik və siyasi repressiya kimi struktur faktorlar da radikallaşmanı sürətləndirən mühüm amillər sırasındadır. Xüsusilə cəmiyyətdə öz mövqeyini itirmiş və ya sosial status çatışmazlığı yaşayan gənclər üçün belə təşkilatlar alternativ özünüreallaşdırma platforması kimi görünə bilər. Bu kontekstdə terror qrupları fərdlərə həm mənəvi identiklik, həm də sosial tanınma imkanı vəd etməklə onları öz sıralarına cəlb etməyə çalışırlar. Bu baxımdan, cəmiyyətdə öz mövqeyini itirmiş, sosial və ya iqtisadi baxımdan kənarlaşdırılmış, xüsusilə də gənc yaş qrupuna aid fərdlər radikallaşma üçün daha həssas kateqoriya hesab olunur. Sosial status çatışmazlığı, gələcək perspektivlərin qeyri-müəyyənliyi və identiklik böhranı yaşayan bu gənclər üçün terror təşkilatları müəyyən mənada “alternativ həyat modeli” təqdim edir. Bu model çərçivəsində fərdlərə yalnız maddi və ya təşkilati dəstək deyil, həm də mənəvi dəyər, məqsəd və aidiyyət hissi vəd olunur. Nəticədə, fərdlər özlərini cəmiyyətin kənarında deyil, “mübarizə aparan seçilmiş qrupun üzvü” kimi görməyə başlayırlar. Eyni zamanda, bu cür təşkilatlar sosial tanınma və prestij elementlərindən də aktiv şəkildə istifadə edirlər. Onlar üzvlərinə qəhrəmanlıq, fədakarlıq və müqəddəs məqsəd uğrunda mübarizə aparmaq kimi simvolik statuslar təqdim etməklə fərdlərin özünüdəyərləndirmə hissini yüksəldirlər. Bu isə xüsusilə özünü dəyərsiz hiss edən və ya sosial mühitdə tanınmayan şəxslər üçün güclü psixoloji motivasiya yaradır. Beləliklə, radikal qruplar fərdlərin həm emosional, həm də sosial ehtiyaclarını hədəf alaraq onları öz sıralarına cəlb etməyə çalışır. Bu proseslər nəticəsində, radikallaşmanı yalnız dini ideologiya ilə deyil, bu prosesi daha geniş kontekstdə sosial-iqtisadi qeyri-bərabərliklər, siyasi mühit və fərdi psixoloji faktorların kompleks qarşılıqlı təsiri nəticəsində formalaşması ilə izah etmək məqsədə uyğun hesab edilir. Bu amillərin birgə təsiri isə terror təşkilatlarının insan resurslarını genişləndirməsinə və davamlılığını təmin etməsinə şərait yaradır (Kaya, 2013, 220).

Nəticə etibarilə, “əl-Qaidə”nin sosial-psixoloji aspektləri onun fəaliyyətinin davamlılığını təmin edən əsas faktorlardan hesab olunur. Belə olduğu halda, radikallaşma mexanizmləri, kollektiv identiklik strategiyaları, ideoloji manipulyasiya və psixoloji təsir vasitələri təşkilatın struktur və fəaliyyət modelinin mühüm elementlərini təşkil edir. Bu aspektlərin elmi təhlili terrorizmin zamanında qarşısını almaq üçün

mühüm əhəmiyyət daşıyır (Şen, 2018, 190). Qeyd etmək lazımdır ki, yuxarıda izah olunan nəzəri yanaşmalar, əsasən, fərdlərin müəyyən sosial qruplara aid olmaq ehtiyacını, həmin qruplara qoşulduqdan sonrakı davranış modellərini izah etməyə yönəlmişdir.Bu yanaşmalar insanları məhz radikal və zorakı qruplara qoşulmağa sövq edən səbəbləri tam və əhatəli şəkildə açıqlaya bilmir. Bu məhdudiyyətin əsas səbəblərindən biri, radikallaşma prosesinin mürəkkəb, çoxsəviyyəli və çoxfaktorlu xarakter daşımasıdır. Belə ki, bu proses yalnız sosial və ideoloji amillərlə deyil, eyni zamanda, fərdi xüsusiyyətlər, psixoloji vəziyyət və şəxsi həyat təcrübələri ilə sıx şəkildə bağlıdır. Bu məqamda radikal qruplara qoşulma fenomeninin izahında individual faktorların rolu xüsusilə vurğulanmalıdır, çünki hər bir fərdin fərqli sosial mühitdə formalaşması, travmatik təcrübələr yaşaması, identiklik böhranı keçirməsi və ya marginalizasiya hissi keçirməsi onun radikal ideologiyalara meyl etməsinə zəmin yarada bilər. Bu baxımdan, radikallaşma yalnız kollektiv təsirlərin nəticəsi deyil, həm də fərdi psixoloji və emosional vəziyyətlərin məhsulu kimi çıxış edir. Bununla yanaşı, zorakı radikalizmə yönəlmiş şəxslərin həyat təcrübələrinin təhlili göstərir ki, onların əhəmiyyətli bir hissəsi psixoloji baxımdan tam stabil xarakterə malik olmur. Bu şəxslərdə tez-tez güclü aidiyyət ehtiyacı, sosial identifikasiya axtarışı və mənsubiyyət hissinin yüksəkliyi müşahidə edilir. Nəticə etibarilə, radikal qruplar bu cür social-psixoloji boşluqları dolduraraq fərdlərə həm identiklik, həm də məqsəd hissi təqdim edir ki, bu da onların bu strukturlara cəlb olunmasını asanlaşdırır (Aqil, Şirinov, 2019, 23-36).

## Nəticə

Nəticədə yuxarıda qeyd olunan məqamları nəzərə alaraq, "əl-Qaidə" terror təşkilatının yaranmasını, inkişafını, eləcə də uzun müddət ərzində fəaliyyət göstərməsini geosiyasi münaqişələr, ideoloji radikallaşma və zəif dövlət institutlarının mövcudluğu kimi amillərin qarşılıqlı təsiri nəticəsində baş vermiş mürəkkəb proses hesab etmək olar. Təşkilatın şəbəkə tipli strukturu və radikal ideoloji bazası onun uzunmüddətli təhlükə mənbəyi kimi qalmasına zəmin yaratmışdır. Bu yanaşma göstərir ki, müasir terrorizm fenomeni sadəcə təhlükəsizlik problemi deyil, eyni zamanda beynəlxalq siyasət, sosial struktur və fərdi davranış modellərinin kəsişmə nöqtəsində formalaşan çoxölçülü bir hadisədir. Tədqiqatın nəticələri göstərir ki, "soyuq müharibə"nin son mərhələsində beynəlxalq sistemdə yaranan güc boşluğu, regional münaqişələrin intensivləşməsi və dövlət institutlarının zəifləməsi "əl-Qaidə"nin meyda-

na çıxması üçün əlverişli şərait yaratmışdır. Bu dövrdə qeyri-dövlət aktorlarının rolunun artması və klassik təhlükəsizlik anlayışının transformasiyası terror təşkilatlarının fəaliyyət imkanlarını genişləndirmişdir. Xüsusilə Əfqanıstan müharibəsi kontekstində formalaşan mücahid şəbəkələri sonradan qlobal səviyyədə fəaliyyət göstərən ideoloji və təşkilati strukturların əsasını təşkil etmişdir. Bu baxımdan, "əl-Qaidə"nin formalaşması beynəlxalq münasibətlər sistemində baş verən struktur dəyişikliklərin birbaşa nəticəsi kimi qiymətləndirilə bilər.

Bununla yanaşı, qloballaşma prosesinin sürətlənməsi və informasiya texnologiyalarının inkişafı təşkilatın fəaliyyət modelinə mühüm təsir göstərmişdir. İnternet və media vasitələrinin geniş yayılması "əl-Qaidə"yə öz ideoloji mesajlarını qlobal auditoriyaya çatdırmaq, yeni tərəfdarlar cəlb etmək və transsərhəd şəbəkələr qurmaq imkanı vermişdir. Eyni zamanda, maliyyə axınlarının liberallaşması və qeyri-rəsmi maliyyə kanallarının mövcudluğu təşkilatın resurs bazasının genişlənməsinə şərait yaratmışdır. Bu faktorlar "əl-Qaidə"nin klassik hərbi təşkilatdan fərqli olaraq daha çevik, desentralizə olunmuş və davamlı struktur formalaşdırmasına imkan yaratmışdır. İdeoloji baxımdan tədqiqat göstərir ki, "əl-Qaidə"nin fəaliyyətinin əsasında müxtəlif radikal dini və siyasi düşüncə cərəyanlarının sintezi dayanır. Üsamə bin Laden, Eymən əl-Zəvahiri və Abdullah Azzam kimi ideoloqların formalaşdırdığı nəzəri baza təşkilatın strateji istiqamətlərini müəyyən etmişdir. Bu ideoloji çərçivə çərçivəsində zorakılıq aktları dini diskurs vasitəsilə əsaslandırılmış, "qlobal cihad", "təkfir" və "ümmət həmrəyliyi" kimi anlayışlar vasitəsilə tərəfdarların səfərbər olunması təmin edilmişdir. Beləliklə, ideologiya təşkilatın fəaliyyətində yalnız nəzəri əsas deyil, eyni zamanda praktiki mobilizasiya aləti kimi çıxış etmişdir.

Təşkilati struktur baxımından "əl-Qaidə"nin mərkəzləşdirilmiş modeldən şəbəkə tipli quruluşa keçidi onun davamlılığını təmin edən əsas amillərdən biri olmuşdur. Hüceyrə tipli təşkilatlanma, regional muxtariyyət və ideoloji birliyin qorunması təşkilata müxtəlif coğrafiyalarda fəaliyyət göstərmək imkanı vermişdir. Bu struktur modeli təhlükəsizlik qüvvələrinin təşkilatı tamamilə zərərsizləşdirməsini çətinləşdirmiş, eyni zamanda, təşkilatın fəaliyyətinin davamlılığını təmin etmişdir. Bu baxımdan "əl-Qaidə"nin təşkilati modeli müasir terror şəbəkələri üçün nümunəvi struktur kimi qiymətləndirilə bilər.

Sosial-psixoloji aspektlər isə təşkilatın fəaliyyət mexanizmlərinin anlaşılmasında xüsusi əhəmiyyət kəsb edir. Araşdırma göstərir ki, radikallaşma prosesi fərdlərin identiklik böhranı, sosial təcrid, ədalətsizlik hissi və mənsubiyyət ehtiyacı kimi faktorlarla sıx bağlıdır. "Əl-Qaidə" bu

psixoloji boşluqlardan istifadə edərək fərdlərə alternativ identiklik və məqsəd hissi təqdim edir. “Qardaşlıq”, “müqəddəs missiya” və “ümumi məqsəd” kimi anlayışlar vasitəsilə fərdlər təşkilata emosional və ideoloji bağlılıq qururlar. Bu proses nəticəsində fərdi identiklik tədricən kollektiv identikliklə əvəz olunur və fərdlər təşkilatın məqsədlərinə xidmət edən resurslara çevrilirlər. Qrup psixologiyası da bu prosesdə mühüm rol oynayır. Kollektiv identiklik və “biz” şüurunun formalaşdırılması fərdlərin tənqidi düşüncə qabiliyyətini zəiflədir və onları qrup normalarına uyğun davranmağa sövq edir. Sosial konformizm, ideoloji təzyiq və liderlik strukturları vasitəsilə fərdlərin davranışları istiqamətləndirilir. Bu şəraitdə fərdlər alternativ baxışlardan uzaqlaşır və təşkilatın ideoloji çərçivəsini qəbul etməyə meyilli olurlar. Eyni zamanda, qrup daxilində formalaşan emosional bağlılıq və qarşılıqlı asılılıq hissi üzvlər arasında güclü psixoloji əlaqə yaradır və onların təşkilata sədaqətini artırır. “Əl-Qaidə”nin istifadə etdiyi digər mühüm psixoloji mexanizmlərdən biri simvolik narrativlər və ideoloji mifologiyadır. Təşkilat öz fəaliyyətini tarixi və dini motivlərlə əsaslandıraraq zorakılığı “ədalətli mübarizə” kimi təqdim edir. Bu yanaşma fərdlərin psixoloji dissonansını azaldır və onların öz hərəkətlərini legitim hesab etməsinə imkan verir. Bundan əlavə, qorxu və təhdid strategiyaları vasitəsilə təşkilat geniş auditoriyaya psixoloji təsir göstərir. Zorakılıq aktları yalnız fiziki zərər yetirmək məqsədi daşımır, eyni zamanda, cəmiyyətdə qorxu atmosferi yaradaraq sosial sabitliyi pozmağa və dövlət institutlarına etimadı zəiflətməyə yönəlir. Eyni zamanda, fərdi psixoloji faktorların rolu da xüsusi qeyd edilməlidir. Fərdlərin şəxsi həyat təcrübələri, travmalar, marginalizasiya hissi və emosional zəiflikləri onların radikal qruplara qoşulma ehtimalını artırır. Bu baxımdan radikallaşma prosesi həm kollektiv, həm də fərdi səviyyədə baş verən çoxşaxəli bir proses kimi qiymətləndirilməlidir.

Tədqiqat, həmçinin göstərir ki, radikallaşma prosesi yalnız ideoloji təsirlərlə məhdudlaşmır. Sosial-iqtisadi bərabərsizlik, siyasi repressiya, işsizlik və gələcək perspektivlərin qeyri-müəyyənliyi kimi faktorlar da fərdlərin radikal ideologiyalara meyl etməsində mühüm rol oynayır. Xüsusilə gənclər arasında sosial status çatışmazlığı və identiklik böhranı radikallaşma riskini artıran əsas amillərdən biri kimi çıxış edir. Terror təşkilatları bu boşluqlardan istifadə edərək fərdlərə həm sosial tanınma, həm də mənəvi dəyər vəd edir. Ümumilikdə, tədqiqatın nəticələri göstərir ki, “əl-Qaidə” müasir beynəlxalq təhlükəsizlik mühitində kompleks və çoxölçülü təhlükə modeli kimi çıxış edir. Onun fəaliyyəti yalnız fiziki təhlükə ilə məhdudlaşmır, eyni zamanda, ideoloji, psixoloji və sosial təsir mexanizmləri vasitəsilə qlobal səviyyədə təsir göstərir.

Bu baxımdan, terrorizmə qarşı mübarizə yalnız hərbi və təhlükəsizlik tədbirləri ilə məhdudlaşmamalı, eyni zamanda sosial, iqtisadi və psixoloji faktorları əhatə edən kompleks yanaşma tələb edir.

Nəticə olaraq qeyd edək ki, “əl-Qaidə”nin yaranma və inkişaf dinamikasının dərindən öyrənilməsi müasir terrorizm fenomeninin mahiyyətini anlamaq, ona qarşı effektiv strategiyalar hazırlamaq üçün mühüm əhəmiyyət kəsb edir. Onun struktur transformasiyası, ideoloji mobilizasiya potensialı və qlobal şəbəkələşmə strategiyası müasir terrorizmin mahiyyətini dərk etmək baxımından elmi-tədqiqatlar üçün əhəmiyyətli nəzəri və praktiki nəticələr ortaya qoyur.

## Ədəbiyyat

Bergen, Peter (2007). *Usame bin Ladini tanıdım* (Tərcümə edən A. Fethi). İstanbul: Neden Kitap (s. 300).

Çağlar, Deniz (2018). *Uluslararası Terörizm ve El-Kaide*. İstanbul: Beta Yayınları (s. 250).

Horgan, John (2005). The Psychology of Terrorism. New York: Taylor & Francis (s. 200).

Kaya, Ayhan (2013). *Radikalizm ve aşırılık: Sosyolojik ve siyasal boyutlar*. İstanbul: SETA Yayınları (s. 220).

Kerküklü, Ömer (2023). Psikolojik Perspektifden Ortadoğuda Terör Yapılanmaları; Reaksiyon ve İstismar (El-Kaide ve IŞİD Örneği). Akademi Sosyal Bilimler Dergisi, 10(28), (s.85-97).

Marc, Juergensmeyer (2003). *Terror in the mind of God: The global rise of religious violence*. Berkeley, CA: University of California Press.(s.320).

Mehmet, Aydın (2015). Radikal İslam ve terör: El-Kaide örneği, Ankara: Nobel Yayıncılık (s. 240).

Michael, Ryan (2007). Decoding Al-Qaeda`s Strategy: The Deep Battle Against America, Nyu-York: Columbia University Press (s.296).

Özeren, Süleyman (2012). *Terörizm ve radikalleşme*. Ankara: Polis Akademisi Yayınları (s. 180).

Öztürk, Selim (2017). Küresel terör örgütü El-Kaidenin gelişimi, Ankara: Kripto Yayınları (s.240)

Öztürk, Selim. (2019). *Küresel Terör Örgütleri*. Ankara: Kripto Yayınları (s. 300).

Riedel, Bruce (2008). *The search for Al Qaeda: Its leadership, ideology, and future*. Washington, DC: Brookings Institution Press (s. 160).

Roy, Olivier (2005). *Küreselleşen İslam* (Tərcümə edən H. Bayrı). İstanbul: Metis Yayınları (s. 250).

Sageman, Marc (2004). *Understanding terror networks*. Philadelphia: University of Pennsylvania Press (s.220).

Sageman, Marc (2008). *Leaderless jihad: Terror networks in the twenty-first century*. Philadelphia: University of Pennsylvania Press (s. 160).

Şirinov, Aqil (2019). "Din motivli zorakı radikalizmin yaranmasına təsir edən psixoloji amillər". Din Araşdırmaları Jurnalı 2/2 (s. 23-36).

Şen, Ahmet (2018). Dini radikalizm ve şiddet, İstanbul: İletişim Yayınları (s. 190).